**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**

«Maliyyə və audit» kafedrasının
müdiri: Ə.Ə.Ələkbərov, i.e.d., prof.

15sentyabr 2025

# «Vergi auditi» fənni üzrə
# İŞÇİ TƏDRİS PROQRAMI
# (Sillabus)

**<u>Fənn haqqında məlumat</u>**

| | |
|---|---|
| **Fənnin kodu:** | **00915** |
| **Fənnin öyrənilməsinin zəruriliyi:** | **seçmə** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri** | **yaz** |
| **Kursun səviyyəsi:** | **bakalavr** |
| **Tədris forması** | **əyani** |
| **Fakultə:** | **Maliyyə və mühasibat** |
| **Qrup:** | ________________ |
| **Tədris yükü:** | **45saat (30/15)** |
| **Kredit sayı:** | **3** |

**<u>II. Müəllim haqqında məlumat</u>**

| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **dos. Kazımov R.N.** |
| **Kafedra:** | **Maliyyə və audit** |
| **E-mail ünvanı:** | **<u>kazimov-r.n@mail.ru</u>** |
| **İş telefonu:** | **+99412-492-40-04** |

**<u>III. Fənnin təsviri:</u>**

Vergi auditi fənni mühasibat və vergi uçotu sahəsində qanunvericilik aktlarına isinadən təsərrüfat subyektlərində vergi öhdəlikləri üzrə büdcə və qeyri büdcə fondları ilə hesablaşmaların auditinin aparılması metodikasının mənimsənilməsi məqsədi ilə tədris edilir.

**<u>IV. Fənnin məqsədi və vəzifələri.</u>**

**Fənnin tədrisinin məqsədi** - tələbələrə müxtəlif vergi növləri üzrə hesablaşmaların uçotunun düzgünlüyünün yoxlanması üzrə auditin metodologiyası və metodikası sahəsində dərin biliklərin verilməsi, təsrrüfat subyektlərində auditin təşkili və aparılması üzrə praktiki vərdişlərin aşılanmasıdır.

**Fənnin tədrisi qarşısında duran vəzifələr:**

- vergitutma obyektinin, vergi ödəyicilərinin müəyyən edilməsinin, vergi dərəcələrinin tətbiqinin mövcud vergi qanunvericiliyinə uyğunluğunun qiymətləndirilməsi;
- vergi güzəştlərindən istifadənin qanunauyğunluğunun, vergitutma bazasının müəyyən edilməsinin düzgünlüyünün yoxlanması;
- vergilərin hesablanmasının düzgünlüyünün, büdcəyə köçürülməsinin tamlığının və vaxtlılığının yoxlanması;
- mühasibat və vergi uçotu registrlərində vergilərin hesablanması və ödənilməsi əməliyyatları üzrə tərtib edilən mühasibat yazılışlarının düzgünlüyünün, eləcə də vergilər üzrə sintetik və analitik uçot məlumatlarının uyğunluğunun yoxlanması
- mühasibat uçotunun mövcud prinsiplərinə müvafiq olaraq təxirə salınmış vergi məbləqlərinin mühasibat hesabatında əks etdirilməsinin düzgünlüyünün yoxlanması;
- mühasibat və vergi hesabatında büdcə üzrə cari vergi öhdəliklərinin əks etdirilməsinün düzgünlüyünün yoxlanması;

- vergi hesabatının tərtib edilməsinin düzgünlüyünün yoxlanması.

**V. Fənnin tədrisi nəticəsində tələbələr aşağıdakıları:**

**Bilməlidirlər:**

• vergi auditinin məqsədini, funksiyalarını, vergi auditinə olan tələbləri;

• vergi qanunvericiliyinə uyğun olaraq vergitutma obyektlərinin müəyyən edilməsi, vergi ödəyiciləri, vergi güzəştlərindən istifadə, vergi dərəcələrinin tətbiqi, vergitutma bazasının müəyyən edilməsi, vergilərin hesablanması və büdcə və qeyri büdcə fondlarına ödənilməsi qaydalarını;

• vergilərin auditinin məqsəd və vəzifələrini, informasiya mənbələrini;

• vergi auditi proqramlarının tərtib edilməsi qaydası və onların məzmununu;

• vergi növləri üzrə auditin aparılması mərhələrini, hər bir mərhələ üzrə tətbiq olunan auditor prosedurlarını və yoxlama metodlarını;

• vergi növləri üzrə auditin nəticələrinin sənədləşdirilməsi, auditor hesabatının tərtib edilməsi qaydasını;

**Bacarmalıdırlar:**

• vergi auditini planlaşdırmağı, auditor yoxlanması proqramını tərtib etməyi;

• vergitutma obyektlərini və vergi ödəyicilərini müəyyən etməyi, vergi güzəştlərindən istifadənin qanunauyğunluğunu yoxlamaq;

• vergi növləri üzrə vergi dərəcələrinin tətbiqinin, vergitutma bazasının və vergilərin hesablanmasının düzgünlüyünü və büdcə və qeyri büdcə fondlarına köçürmələrin tamlığını və vaxtlılığını yoxlamağı;

• vergi uçotu registrlərində vergilərin hesablanması və ödənilməsi əməliyyatları üzrə tərtib edilən mühasibat yazılışlarının düzgünlüyünü, eləcə də vergi növləri üzrə sintetik və analitik uçot məlumatlarının uyğunluğunu yoxlamağı;

• vergilər üzrə aparılmış auditinin nəticələrini sənədləşdirməyi, auditor hesabatını tərtib etməyi.

**VI. Fənnin mühazirə mövzuları.**

**VII. Prerekvizitlər.** «Vergi və vegitutma", "Maliyyə uçotu", "Vergi uçotu" "Audit".

**VIII. Fənnin tədris metodologiyası:**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, işgüzar oyunlardan istifadə, test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim

| Sıra № | Mövzunun adı | Mühazirə | Seminar |
|---|---|---|---|
| 1. | Vergi auditinin nəzəri əsasları | 2 | – |
| 2. | Vergi auditinin normativ hüquqi tənzimlənməsi | 2 | – |
| 3. | Vergi auditinin təşkili və auditor prosedurları | 2 | – |
| 4. | Vergi auditinin metodikası | 2 | 2 |
| 5. | Mühasibat və vergi uçotu məqsədləri üçün təşkilatın uçot siyasətinin və daxili nəzarətin təşkilinin auditi | 2 | – |
| 6. | Vergi auditinin nəticələrinin rəsmiləşdirilməsi | 2 | – |
| 7. | Hüquqi şəxslərin mənfəət vergisi üzrə büdcə ilə hesablaşmaların auditi | 2 | 2 |
| 8. | Fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmaların auditi. | 2 | 2 |
| 9. | Əlavə dəyər vergisinin (ƏDV) auditi | 2 | 2 |
| 10. | Sadələşdirilmiş verginin auditi | 2 | 2 |
| 11 | Qeyri büdcə fondları ilə hesablaşmaların auditi | 2 | 2 |
| 12. | Əmlak vergisi üzrə hesablaşmaların auditi | 2 | 2 |
| 13. | Torpaq vergisi üzrə hesablaşmaların auditi | 2 | 1 |
| 14 | Aksiz vergisi üzrə hesablaşmaların auditi | 2 | – |
| 15. | Mədən və yol vergisinin auditi | 2 | – |
| | **Cəmi:** | **30** | **15** |

üsullarından istifadə edilir. Verilən biliklərin tətbiqi üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

**IX. Fənnin tədrisində istifadə olunan ədəbiyyatlar.**

Ədəbiyyat


1. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. – Bakı. 1994 (sonrakı dəyişikliklər və əlavələrlə).
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. – Bakı. 2021
3. Beynəlxalq Audit Standartları. AR Auditor Palatasının rəsni saytı/ https://audit.gov.az/Az/page/414
4. Audit və əminlik. AR MN yanında METM. https://www.tedris-maliyye.gov.azaudit.gov.az/Az/page/414
5. “Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mühasibat uçotunun aparılması Qaydaları. AR MN tərəfindən 30 yanvar 2017-ci ildə təsdiq edilmişdir. http//85.132.71.30/framework/34909; framework/31986
6. Fətullayev R. Vergi və sığorta ödənişlərinin uçotu. Nəzəri və praktiki vəsait. – Bakı. Nurlar. 2022. – 192 s.
7. Kazımov R.N, Namazova C.B. Praktiki audit. –Bakı. Elm və təhsil. 2011. – 212 s.
8. Sadıqov T.Ə., Rzayev İ.M. Vergi uçotu və auditi. Dərslik. – Bakı. Elm. 2014. – 556 s.
9. Зотиков Н.З., Арланова О.И. Налоговый аудит. Учебное пособие. – Саратов. Профобразование. 2021. – 182 с.
10. Кучкова Н.М., Мухамадиева Э.Ф. Аудит налогообложения. Учебное пособие. –М.: КНОРУС. 2021. – 252 с
11. Налоговый аудит.(продвинутый уровень): учебник /А.В.Петух, М.Ф.Сафонова, И.Н.Калинина, Д.С.Резниченко. – Краснодар: КубГАУ. 2018. -208 с.
12. Олейник М.А. Налоговый аудит. Учебное пособие. – Краснодар. КубГАУ. 2015. – 212 с.


**X.Fənnin mühazirə mətnləri**.

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektronformada universitetin saytında”Vertual universitet” bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

**XI. Mövzuların məzmiunu və tədris-tematik bölgüsü**

| Həftə № | Mövzunun adı | Məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1. | Vergi auditinin nəzəri əsasları | 1.1.Vergi auditinin mahiyyəti: məqsəd və vəzifələr. | Ədəb. 8, s.313-318<br>Ədəb .9, s.5-20<br>Ədəb. 10, s.16-23;<br>Ədəb. 11,s.4-15;<br>Ədəb. 12, s.11-15, s. 20-23 |
| | | 1.2.Vergi auditinin informasiya mənbələri. | |
| | | 1.3.Vergi auditinin əsas prinsipləri və funksiyaları. | |
| | | 1.4.Vergi auditinin növləri və vergi auditinə yaxın xidmətlər. | |
| | | 1.5.Vergi auditinin aparılması zamanı tərəflərin məsuliyyətləri | |
| 2. | Vergi auditinin normativ hüquqi tənzimlənməsi | 2.1. Vergilərin iqtisadi mahiyyəti. | Ədəb. 8, I fəsil;<br>Ədəb. 9, s.52-65<br>Ədəb. 12, s.26-40 |
| | | 2.2. Vergi və yığımlar haqqında qanunvericilik və digər normativ hüquqi aktlar. | |
| | | 2.3. Vergi auditinin normativ hüquqi bazası | |
| 3. | | 3.1. Vergitutmanın auditor yoxlanması planının və proqramının tərtib edilməsi. | **Ədəb. 11,** s.27-49; |

| | | | |
|---|---|---|---|
| | Vergi auditinin təşkili və auditor prosedurları | 3.2. Audit sübutları, onların növləri, əldə olunma mənbələri və keyfiyyət xarakteristikaları<br>3.3. Auditor prosedurları.<br>3.4. Auditdə tətbiq olunan faktiki və sənədli yoxlama metodları | **Ədəb. 12,** s.71-79 |
| 4 | Vergi auditinin metodikası | 4.1. Vergi auditinin planlaşdırılması<br>4.2. Vergi auditinin metodikası.<br>4.3. Vergi auditinin aparılması mərhələləri<br>4.4. Auditor tapşırıqlarının tərtib edilməsi<br>4.5. Auditor və vergi orqanlarının əlaqələri | Ədəb. 7, III fəsil;<br>Ədəb. 8, s.318-320<br>Ədəb. 9, 21-55;<br>Ədəb. 10, s.20-24<br>Ədəb. 12, 63-68 |
| 5. | Mühasibat və vergi uçotu məqsədləri üçün təşkilatın uçot siyasətinin və daxili nəzarətin təşkilinin auditi | 5.1. Müəssisənin uçot siyasətinin anlayışı<br>5.2. Vergitutma məqsədi üçün müəssisənin uçot siyasətinin formalaşdırılması qaydası<br>5.3. Vergi uçotu siyasətində gəlir və xərclərin və maliyyə nəticələrinin əks etdirilməsi qaydası<br>5.4. Vergitutma məqsədi üçün müəssisənin uçot siyasətinin auditinin mərhələləri.<br>5.5. Daxili audit xidmətinin təşkilinin auditi | Ədəb. 7, s.96-98;<br>Ədəb. 10,s.64-73;<br>Ədəb. 12, s.177-181<br>Ədəb.7, IV fəsil;<br>Ədəb. 12, s.160-173; |
| 6. | Vergi auditinin nəticələrinin rəsmiləşdirilməsi | 6.1. Audit sənədləşdirməsinin əhəmiyyəti: auditorun işçi sənədlərinin tərkibi və formaları.<br>6.2. Auditorun işçi sənədlərinin məzmunu və tərtib edilməsi qaydası.<br>6.3. Auditin yekulaşdırılması qayda və prosedurları.<br>6.4. Auditor hesabatının tərtib edilməsi | Ədəb. 10, s.25-26<br>Ədəb.11, s.50-74 |
| 7. | Hüquqi şəxslərin mənfəət vergisi üzrə büdcə ilə hesablaşmaların auditi | 7.1. Mənfəət vergisi üzrə vergitutma bazasının formalaşmasının metodiki əsasları<br>7.2. Mənfəət vergisinin auditinin məqsədi, vəzifələri və informasiya təminatı.<br>7.3. Vergitutma məqsədləri üçün gəlir və xərclərin yoxlanması metodikası<br>7.4. Mənfəət vergisi üzrə büdcə ilə hesablaşmaların auditi metodikası<br>7.5. Mənfəət vergisi üzrə büdcə ilə hesablaş-malar zamanı buraxılan tipik pozuntular | Ədəb.2, İX-X fəsil;<br>Ədəb. 7, İX fəsil;<br>Ədəb.8, s.469-492<br>Ədəb.9, s.111-126;<br>Ədəb.10, s.74-106;<br>Ədəb.11, s.75-93;<br>Ədəb. 12, s.120-131 |
| 8. | Fiziki şəxslərin gə-lir vergisi üzrə büdcə ilə hesablaş-maların auditi | 8.1. Fiziki şəxslərin gəlir vergisi üzrə ümumi qaydalar..<br>8.2. Fiziki şəxslərin gəlir vergisinin auditinin məqsədi, vəzifələri və informasiya mənbələri.<br>8.3. Fiziki şəxslərin gəlir vergisinin auditinin metodikası. | Ədəb.2, VIII, X fəsil;<br>Ədəb.6, s.43-53;<br>Ədəb.8, s.492-505 |

| | | | |
|---|---|---|---|
| | | 8.4. Fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmalar zamanı buraxılan tipik pozuntular | Ədəb.9, s.83-96;<br>Ədəb.10, s. 156-166<br>Ədəb.11, s.117-124;<br>Ədəb.12, s.111-116 |
| 9. | Əlavə dəyər vergi-sinin (ƏDV) auditi | 9.1. ƏDV-nin mahiyyəti: ümumi qaydalar, vergi ödəyiciləri, vergi dərəcələr, hesablanma qaydaları<br>9.2. ƏDV-nin auditinin məqsədi, vəzifələri, informasiya mənbələri.<br>9.3. ƏDV-nin auditinin mərhələləri və onların məzmunu.<br>9.4. ƏDV üzrə üzrə büdcə ilə hesablaşmalar zamanı buraxılan tipik pozuntular | Ədəb.2, XI fəsil;<br>Ədəb.6, s.82-114<br>Ədəb.8, s.505-536<br>Ədəb.9, s.66-82<br>Ədəb.10, s.107-127<br>Ədəb.11, s.94-116<br>Ədəb.12, 88-100 |
| 10. | Sadələşdirilmiş verginin auditi | 10.1. Sadələşdirilmiş vergi haqqında ümumi qaydalar.<br>10.2. Sadələşdirilmiş verginin auditinin məq-sədi və vəzifələri<br>10.3. Sadələşdirilmiş verginin auditinin infor-masiya mənbələri<br>10.4. Sadələşdirilmiş verginin auditi metodika-sı<br>10.5. Sadələşdirilmiş verginin auditi prosesin-də aşkar edilən tipik pozuntular<br>. | Ədəb.2, XVII fəsil;<br>Ədəb.6, s.66-81;<br>Ədəb.8, s.545-548<br>Ədəb.9, s.157-163;<br>Ədəb.10, s.172-175; |
| 11. | Qeyri büdcə fond-ları ilə hesablaşma-ların auditi | 11.1. Qeyri büdcə fondları ilə hesablaşmaların auditi üzrə ümumi qaydalar<br>11.2. Pensiya fondu üzrə hesablaşmaların auditi<br>11.3. Sosial sığorta fondu ilə hesablaşmaların auditi<br>11.4. İcbari tibbi sığorta üzrə hesablaşmaların auditi<br>11.5. Sosial sığorta və təminat üzrə qeyri-büdcə fondları ilə hesablaşmaların auditi zamanı aşkar edilən tipik pozuntular. | Ədəb.2, VIII fəsil;<br><br>Ədəb.9, s.97-110<br>Ədəb.10, s.144-153;<br>Ədəb.12, s.103-108; |
| 12. | Əmlak vergisi üzrə hesablaşmaların auditi | 12.1. Əmlak vergisinin iqtisadi mahiyyəti<br>12.2. Əmlak vergisinin auditinin məqsədi, vəzifələri və informasiya mənbələri<br>12.3. Əmlak verisinin aiditi metodikası.<br>12.4. Əmlak vergisinin auditi zamanı aşkar edilən tipik pozuntular. | Ədəb.2, XIII fəsil;<br>Ədəb.6, s.543-544<br>Ədəb.8, s.115-128<br>Ədəb.9, s.134-163 |

| | | | |
|---|---|---|---|
| | | | Ədəb.10, s.128-143; |
| 13. | Torpaq vergisi üzrə hesablaşma-maların auditi | 13.1. Torpaq vergisi üzrə ümumi qaydalar. | Ədəb.2, XIV fəsil; Ədəb.8, s.544 Ədəb.9, s.148-156 |
| | | 13.2. Torpaq vergisi üzrə vergitutmanın auditi-nin məqsədi, vəzifələri və informasiya mənbəlıri | |
| | | 13.3. Torpaq vergisi üzrə vergitutmanın auditi-nin proqramı | |
| | | 13.4. Torpaq vergisi üzrə vergitutmanın auditi-nin mərhələləri | |
| | | 13.5. Torpaq vergisi üzrə vergitutmanın auditi zamanı aşkar edilən tipik nöqsanlar | |
| 14. | Aksiz vergisi üzrə hesablaşmaların auditi | 14.1. Aksiz vergisinin mahiyyəti və ümumi qaydalar. | Ədəb.2, XII fəsil; Ədəb.8, s.536-545 |
| | | 14.2. Aksiz vergisinin auditinin məqsədi, vəzifələri və informasiya mənbələri | |
| | | 14.3. Aksiz vergisinin auditi metodikası. | |
| | | 14.4. Aksiz vergisinin auditi zamanı aşkar edilən tipik pozuntular | |
| 15. | Mədən və yol vergisinin auditi | 15.1. Mədən və yol vergisi üzrə ümumi qaydalar. | Ədəb.2, XV-XVI fəsil; Ədəb.6,s.140-144, 145-150; Ədəb.8, s.544-545, 548-549; Ədəb.11, s.125-145; |
| | | 15.2. Mədən və yol vergisinin auditinin məqsədi, vəzifələri və informasiya mənbələri | |
| | | 15.3. Mədən vergisinin auditi metodikası | |
| | | 15.4. Yol vergisinin auditi metodikası | |
| | | | |
| | **Yekun imtahan** | | |

**XII. Fənn üzrə qiymətləndirmə**,

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistemi üzrə qiymətləndirilir.Balların maksimummiqdarı 100 baldır. Yekun imtahandan sonar tələbənin fənn üzrə topladığıbütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50% |
| Ara qiymətləndirmə əsasında | 30 | 30% |
| Aktivlik balı | 20 | 20% |
| **Cəmi**: | **100** | **100%** |

Semestr müddətində 1 kollokvum keçirilir.

Kollokvumda iştirak etmədiyi halda tələbəyə jurnalda "0" yazılır.

Tələbə 50 balı imtahanda yığır.

***Qeyd:***

Tələbə imtahanda 17 bal yığmış olduqda, onun imtahana qədər yığmış olduğu ballar ləğv edilir.

Fənn üzrə semester ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekunmiqdarına görə onun yekunbiliyi aşağıdakı kimi qiymətləndirilir:

91-100 bal - "əla" - A
81- 90 bal - "çox yaxşı - B
71- 80 bal - "yaxşı" - C
61- 70 bal - "kafi" - D
51- 60 bal - "qənaətbəxş" - E
51 baldan Aşağı "qeyri-kafi" - F

Tələbənin topladığıyekun bal 51 baldan Aşağı olduqda tələbə bu fənndən kredit qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Fənnin tədris materiallarının hazırlanması zamanıistifadə olunan mənbələr:**

Sillabusun məzmunu və strukturu ilə bağlı təklif olunan bu sənədin hazırlanması zamanı aşağıdakı mənbələrdən istifadə olunmuşdur:

1. **The Londom School of Economics. (LSE)**
   http;//www.lse.ac.uk/resources/calendar/courseGuides/MG/2018MG411.htm?from serp=1
2. **Stanford University.**
   http;//teachingcommons.stanford.edu/resources/course-preparation-resources/creating-syllabus
3. **University of Toronto**
   http;//teaching.utoronto.ca/teching-support/course-desgn/developing-a-syllabus/
4. **Ali təhsil müəllimləri üçün yardımçı xüsusi saytlar:**
   https//www/owlteacher.com/syllabus.html
   https//study.com/academy/lesson/esl-high-school-syllabus-example.html

Hazırladı: Kazımov R.N., i.e.n., dosent